Respublika.- 2019.- 5 aprel.- S.4.

# Altmışdan çox ölkənin diplomatları Gəncədə



**Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri aprelin 2-də Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə Gəncə şəhərinə səfər ediblər. 60-dan çox ölkəni və beynəlxalq təşkilatları təmsil edən diplomatlar Gəncə şəhərinin sosial-iqtisadi, mədəni inkişafı, habelə turizm potensialı ilə yaxından tanış olublar. İlk öncə, qonaqlar Gəncə şəhərində ecazkar təbiəti və mənzərəsi olan Heydər Əliyev Park Kompleksinə gəliblər. Heydər Əliyev Park Kompleksində yaradılan şərait barədə məlumat verilərək bildirilib ki, parkda yenidənqurma işləri 2012-ci ildə aparılıb. Heydər Əliyev Parkının girişində möhtəşəm “Zəfər tağı” ucaldılıb. Orijinal layihə əsasında inşa olunan bu istirahət məkanında Müasir İncəsənət Mərkəzi və kafe fəaliyyət göstərir. Buraya gələn qonaqlar “Zəfər tağı”nın açıq seyrəngahından şəhərin və Heydər Əliyev Parkının mənzərəsini seyr edə bilirlər. Göz oxşayan xiyabanda böyük həcmdə yaşıllaşdırma işləri həyata keçirilib və burada istirahət üçün hər cür şərait yaradılıb. Parkda yaradılan süni göl və orijinal şəlalə bu məkana xüsusi gözəllik verir.**

Qonaqlara Gəncədə möhtəşəm layihə əsasında tikilən əzəmətli Heydər Əliyev Mərkəzi haqqında da geniş məlumat verilib. Bildirilib ki, ulu öndərə gəncəlilərin sonsuz məhəbbətinin təcəssümü olan Heydər Əliyev Mərkəzinin əhatə etdiyi ərazidə orijinal memarlıq üslubunda fəvvarələr və müasir işıqlandırma sistemi quraşdırılıb. Ərazidə əsaslı abadlıq və yaşıllaşdırma işləri görülüb. Heydər Əliyev Mərkəzinin tikintisində şəhərsalma memarlığının son nailiyyətlərindən istifadə olunub. Burada fəaliyyət göstərən Heydər Əliyev Muzeyi ulu öndərin keçdiyi zəngin və şərəfli həyat yolunu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirir. Muzeydə Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı, onun zəngin fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Burada ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş olunur. Muzeydə Gəncənin son illərdə keçdiyi əsaslı sosial-iqtisadi inkişaf yolu, Prezident İlham Əliyevin Gəncəyə göstərdiyi diqqət və qayğının bariz nümunələri ilə bağlı fotolara geniş yer ayrılıb. Burada Heydər Əliyev Mərkəzində oxu zalı, elektron kitabxana, xarici dil kursları, IDEA İctimai Birliyi resurs mərkəzi, videokonfrans salonu, hərtərəfli təchizatı olan iclas və konfrans zalları var.

Xarici diplomatların üz tutduqları növbəti məkan böyük mütəfəkkir, dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksi olub. Qonaqlar əvvəlcə şeyx Nizaminin və şairin valideynlərinin qəbirlərini ziyarət ediblər. Məlumat verilib ki, Nizami Gəncəvinin qəbri üzərində ilk türbə XIV əsrdə tikilib. Bu vaxtadək şairin məzarı üzərində müxtəlif əsrlərdə dörd dəfə türbə tikilsə də, onların heç biri bu qədər möhtəşəm və əzəmətli olmayıb. Sonra qonaqlar “Gəncə Avtomobil Zavodu” (GAZ) İstehsalat Birliyinin istehsal sahələrinə baş çəkiblər. Bildirilib ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir, yeni sənaye və istehsal müəssisələri yaradılır. Ölkədə gedən sənayeləşmə prosesinə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyi də mühüm töhfələr verir. Fəaliyyətinə OKA, UAZ, ÇANQAN avtomobillərinin yığımı ilə başlayan müəssisə hazırda müxtəlif çeşiddə texnika istehsal edir. 2007-ci ilin martından burada “Belarus” markalı traktorların yığımına başlanılıb. 2007-ci ildən bu ilin fevralınadək zavodda 11 modeldə 10386 “Belarus” markalı traktoru istehsal edilib. “Aqrolizinq” ASC-yə 9662 traktor təhvil verilib. 724 traktor isə iş adamlarına və fermerlərə satılıb. Zavodda Almaniyanın MAHA şirkətinin müasir standartlara cavab verən əyləc sisteminin sınaq stendi quraşdırılıb. Burada istehsal edilən bütün texnika - traktor və avtomobillər tam şəkildə sınaqdan keçirilir. 2015-ci ildən zavodda “KAMAZ” və “URAL” markalı avtomobillərin də yığımına başlanılıb.

Ötən ilin dekabrında Gəncə Avtomobil Zavodunun rəhbərliyi ilə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının Belarus Respublikasına birgə işgüzar səfəri zamanı zavodda elektrobusların istehsalı ilə bağlı “Belkomunmaş” şirkəti ilə memorandum imzalanıb. Bu memoranduma əsasən, yaxın günlərdə 4 avtobus komplektləşdiricilərinin zavoda gətiriləcəyi gözlənilir.



Daha sonra qonaqlar müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan “İmamzadə” dini kompleksi ilə tanış olublar. Məlumat verilib ki, bu müqəddəs məkanda 739-cu ildə beşinci İmam Məhəmməd Bağırın oğlu Mövlanə İbrahim dəfn edilib. “İmamzadə” ziyarətgahı əsrlər boyu insanların üz tutduğu müqəddəs məkanlardandır. Prezident İlham Əliyevin təşəbbüsü ilə ziyarətgahda geniş abadlıq-quruculuq və yenidənqurma işləri aparılıb.

Gəncə şəhərindən sonra qonaqlar Samux rayonuna yola düşüblər.

Diplomatları Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi, səfir Pərvin Mirzəzadə müşayiət edib.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**